ADB
# Azərbaycandan
XƏBƏRLƏR
www.adb.org/AZRM
adbazrm@adb.org
Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin Rüblük Xəbərlər Bülleteni
Dördüncü Rüb, 2006-cı il

# AİB Azərbaycanda Multitranş Kredit Mexanizmini Təqdim Etmişdir

Birgə strategiya imkanlarını, əsas iş sahələrini və proqram məsələlərini Azərbaycan Hökumətilə müzakirə etmək üçün 2-3 noyabr tarixlərində AİB-in yüksək səviyyəli missiyası Azərbaycana səfər etmişdir. Nümayəndə heyətinə Mərkəzi və Qərbi Asiya Regional Departamentinin (MQRD) Baş Direktoru Xuan Miranda başçılıq etmişdir və MQRD-ın Sosial Sektor Bölümünün Direktoru Metyu Vestfol və Baş Vəkilin Müavini Çin Çun Fonq daxil olmuşdur.

Səfər zamanı cənab Miranda hökumət rəsmilərinə və müvafiq qurumlara yeni multitranş kredit mexanizmini (MKM) tanıdaraq AİB-ın İnnovasiya və Səmərəlilik Təşəbbüsünü (İST) təqdim etmişdir.

Hal hazırda Azərbaycan Hökuməti Azərbaycanda yol şəbəkəsinin inkişafına yardım məqsədilə nəqliyyat sektoruna təklif olunmuş 500 milyon dollarlıq MKM-nı nəzərdən keçirməkdədir. Təklif olunmuş bu MKM üç tranşdan ibarət olacaqdır. Birinci tranş cənub yol dəhlizində Masallı və Astara arasında expres şosesinin tikintisinə dəstək olmaq məqsədini daşıyır.

AİB-ın pilot MKM-i (i) ayrı-ayrı, böyük müstəqil layihələrin ardıcıl hissələri; (ii) daha uzun müddətli sektor investisiya proqramlarının hissələri (yaxud tranşları); (iii) aralıq maliyyə kredit imkanları və (iv) sığortalar üçün borcun ödənilməsi imkanını yaratmaq məqsədini daşıyır. Təklif olunmuş MKM sektor və sahə kreditlərinin bütün özəlliklərini və üstəlik müştərinin və AİB-in nəğd pul və mühasibat balansının idarəolunması üzrə ciddi prinsiplərini özündə birləşdirir.

Ölkənin uzunmüddətli investisiya ehtiyaclarına gücləndirilmiş planlı yanaşma MKM-in üstün cəhətlərinə aiddir. "MKM AİB-a imkan verəcək ki, daha çox strukturlaşdırılmış maliyyə vasitələri və proqram yanaşmasını tətbiq etməklə inkişaf etməkdə olan üzv ölkələrə daha yaxşı xidmət göstərsin," cənab Miranda demişdir.

*(davamı 2-ci səhifədə)*



**MALİYYƏ NAZİRLİYİNDƏ GÖRÜŞ** (soldan) Filip Çanq , AZDN-nin Müvəqqəti İşlər Vəkili; Metyu Vestfol, Direktor, MQRD Sosial Sektor Bölümü; Xuan Miranda, Baş Direktor, MQRD; Çin Çun Fonq, Baş Vəkilin Müavini; Mərdan Mərdanov, Xarici İqtisadi Əlaqələr Şöbəsinin Rəhbəri, Maliyyə Nazirliyi; Samir Şərifov, Maliyyə Naziri; Ədalət Əliyev, Asiya Regionu üzrə Bölmə Rəhbəri



**İNNOVASİYA VƏ SƏMƏRƏLİLİK TƏŞƏBBÜSÜNÜN (İST) TƏQDIMATI** Xuan Miranda (soldan ikinci), Baş Direktor, MQRD dövlət və müvafiq qurumların nümayəndələrilə AİB İST-ni müzakirə edir

## Buraxılışda


- MARİƏ Biznes İnkişafı Forumu Keçirilmişdir **2**
- AZDN Xəbərlər Icmalı **3**
- Yeni Nəşrlər **3**
- Mərkəzi Asiyada Regional Əməkdaşlığı Sürətləndirmək üçün Fəaliyyət Planı **4**

## Multitranş Kredit Mexanizmi Haqqında

*(əvvəli 1-ci səhifədə)*

MKM ehtiyat kredit və yaxud müəyyən məqsədi olan kreditə bənzəyir. Bununla belə, o təsdiqləndiyi zaman AİB müştərilərinin və yaxud AİB-in özünün mühasibat balansında gözlənilməz öhdəliyə çevrilmir. Mexanizmin istifadə olunmamış hissəsi mühasibat balansından kənarda qalmış hesab olunmur. AİB və müştərilərin mühasibat balanslarında (və balanslaşdırılmamış uçotlarında) MKM başlığı altında məlumatlar yalnız spesifik təkrarlanan vəzifələrlə bağlı kredit müqavilələri imzalandıqdan və qüvvəyə mindikdən sonra AİB İdarə Heyətinin təsdiqlədiyi şərtlərə və meyarlara uyğun olaraq daxil edilir.

MKM ayrı-ayrı komponentləri olan böyük müstəqil layihələrə şamil olunur və xüsusilə sektor investisiya proqramlarında, aralıq maliyyə kreditlərinin təminatında (məsələn: kiçik və orta sahibkarlığa dəstək olanlar) və bütün sektorlarda sığorta kimi və inkişaf etməkdə olan ölkələrin hər birində səmərəli olur.

MKM şərtlərində layəhinin təsdiq olunması proseduru sadələşdirilmişdir və layihə bir dəfə AİB-in İdarə Heyətinin nəzərdən keçirilməsi üçün təqdim olunmalıdır. İdarə Heyəti hər hansı bir layihəni müəyyən olunmuş maksimum məbləği və istifadə müddətini təsdiq edəcəkdir. MKM-in işlənməsində olan mərhələlər əsasən mövcud sektor və layihələr üzrə kredit modellərinə bənzəyirlər. Sektor investisiya proqramının maliyyələşdirilməsi üçün MKM-də lazım olan xüsusiyyətlərə hazır və ya hazırlanma ərəfəsində olan təfsilatlı sektor investisiya proqramı (orta yaxud uzun müddətli) və sektor siyasəti xüsusiyyətlərinin, ehtiyat tədbirlərinin, idarəetmənin, potensial və təşkilati mövqe, satınalma yolları, maliyyə idarəetməsi və himayəçi nəzarəti barədə təfsilatlı məlumat daxildir.

İnvestisiya proqramı, həmçinin, yoxsulluğun azaldılması tədbirlərinə uyğun olmalıdır. Müştəri və AİB bu məlumatı nəzərdən keçirəcəkdir və əməliyyat üçün ümumi məlumat sənədini razılaşdıracaqdır. Tərəflər razılaşandan sonra mütəxəssislər lazımi hazırlıq işlərini aparacaq və MKM-nin strukturunu hazırlayacaqlar. Lazımi tədbirlərə texniki, kommersiya, maliyyə, təşkilati, hüquqi, ətraf-mühit, ictimai ehtiyat tədbirləri, idarəetmə, bacarıq və himayəçi nəzarəti məsələləri aiddir.

Bundan sonraki işlər dövlət sektoru əməliyyatları üçün AİB-in mövcud qaydaları, qanunları və iş mərhələlərindən sonra gələcək. Layihənin işlənməsinə bir-biri ilə əlaqəli iki mərhələ daxildir: çərçivə maliyyələşmə müqaviləsinin hazırlanması və müvafiq MKM üzrə kredit müqavilələrinin həyata keçirilməsi. ■

# MARİƏ Biznesin İnkişafı Forumu Keçirilmişdir

AİB-nın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq üzrə (MARİƏ) Biznesin İnkişafı Forumunda Əfqanıstan, Azərbaycan, Çin Xalq Respublikası (ÇXR), Qazaxstan, Qırğızıstan, Monqolustan, Tacikistan və Özbəkistandan gəlmiş 200-dən çox işgüzar və dövlət nümayəndələri iştirak etmişdir. 16-17 oktyabr tarixlərində ÇXR-nın Xinjanq vilayətinin Urumçi şəhərində keçirilən Forum, inkişaf naminə əməkdaşlıq etmək üçün özəl və dövlət sektorunun geniş imkanlarını araşdırmışdır.

Bu Biznesin İnkişafı Forumu (BİF) keçən il Bişkek şəhərində keçirilən Regional Biznes üzrə dəyirmimasanın məntiqi davamı olmuşdur. Onun məqsədi regionun inkişaf potensialını və investisiya imkanları barədə məlumat yaymaq olmuşdur.

Azərbaycan Hökumətini bu forumda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Baş Direktorunun Məsləhətçisi Sabiq Abdullayev təmsil etmişdir. “Belə bir tədbirdə iştirak etmək üçün bu gözəl imkanı yaratdığına görə AİB-na minnətdaram. Hesab edirəm ki, bu tədbir MARİƏ-nin Nazirlər Konfransında müzakirə olunması üçün energetika, mədən sənayesi va maliyyə kimi inkişaf sahələri üzrə məsləhətlər hazırlamaq üçün xüsusilə qiymətli olmuşdur,” cənab Abdullayev demişdir.

Forum iştirakçıları illik həcmi təxminən 2-3 milyard dollar olan regionun nəhəng infrastruktur ehtiyaclarını maliyyələşdirmək, regionda biznes sektoru və ümumi sektora aid siyasətləri uyğunlaşdıraraq onu xarici yatırımlar üçün daha cazibədar etmək, MARİƏ-nin əməkdaşlıq edərək inkişaf etmək məqsədinə nail olmaq üçün daha çox səy göstərmək və iqtisadiyyatı inkişaf etdirərkən ictimai və ətrafmühit məsələlərinə lazımi diqqəti göstərmək üçün özəl sektor və beynəlxalq qurumlarla yaxın əməkdaşlıq etməyi məsləhət gördülər.

“Mən çox şad oldum ki, bütün iştirakçılar dövlət və özəl sektorun əməkdaşlığı üçün imkanları araşdırmaq və regionda inkişafın aparıcısı kimi biznesin inkişafını sürətləndirmək üçün cəsarətli addımlar atmağın vacib olduğu ilə razılaşdılar,” deyə cənab Abdullayev əlavə etmişdir. BİF-in iştirakçıları Mərkəzi Asiyanın inkişafında biznesin daha böyük rol oynamalı olduğunu dilə gətirdilər və inkişafı sürətləndirmək üçün əsas proqramlar və layihələr çərçivəsində hökumətlər və beynəlxalq qurumlarla birgə çalışaraq regional əməkdaşlığı dəstəkləyəcəklərinə söz verdilər.

Bİ Forumu ÇXR-nın Kommersiya Nazirliyi, AİB və Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Ümum-Çin Sənaye və Kommersiya Federasiyasının dəstəyi ilə təşkil olunmuşdu. ■






**MARİƏ BIZNESİN İNKİŞAFI FORUMU** Forum inkişaf naminə əməkdaşlıq etmək üçün özəl və dövlət sektorunun geniş imkanlarını araşdırmışdır

# AZDN Xəbərlər İcmalı

## Bakıda MARİƏ Ticarət Siyasətlərinin Əlaqələndirməsi Komitəsinin Seminarı keçirilmişdir

Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (MARİƏ) proqramının Ticarət Siyasətləri üzrə Əlaqələndirmə Komitəsi (TSƏK) sentyabrın 28-də Azərbaycanın Bakı şəhərində hökumət qurumları, donorlar, özəl sektor və media nümayəndələri üçün məlumat seminarı keçirmişdir. AZDN-nin Müvəqqəti İşlər Vəkili Filip Çanq və İqtisadi İnkişaf Nazirliyinin Aparatının Rəhbəri Samir Vəliyev 40-dan çox iştirakçını salamlamışlar. AİB-in Mərkəzi və Qərbi Asiya Regional Departamentinin (MQRD) İqtisadçısı Sona Şrezta və Beynəlxalq Valyuta Fondunun Direktor Köməkçisi Sena Eken müzakirəni aparmışlar. Daha ətraflı məlumat əldə etmək üçün bu səhifəyə müraciət edin: http://www.adb.org/Documents/News/AZRM/azrm2006007.asp



## AİB QHT Təşəbbüsü Çərçivəsində QİÇS-in Qarşısını Almaq Proqramını Təqdim Etmişdir

Rəfayil Abbasov, AIB-nin Azərbaycandakı Daimi Nümayəndəliyinin İqtisadiyyat üzrə Əməkdaşı, oktyabrın 11-də QİÇS Xeyriyyə Fondu tərəfindən maliyyələşdirilən və regional texniki yardım proqramı çərçivəsində həyata keçirilən AİB-in QİÇS Qrant Proqramını təqdim etmişdir. Vətəndaş cəmiyyəti təşkilatları və hökumət qurumlarının nümayəndələri təqdimatda iştirak etmişlər. Bu proqram barədə daha ətraflı məlumat üçün bax http://www.adb.org/NGOs/Grants/hiv-aids-grant.asp



## AZDN Azərbaycan Kredit İttifaqı Birliyinin İkinci İllik Konfransında İştirak etmişdir

Azərbaycan Daimi Nümayəndəliyinin İqtisadiyyat üzrə Əməkdaşı Rəfayil Abbasov 27 oktyabrda keçirilmiş Azərbaycan Kredit İttifaqları Assosasiyasının İkinci İllik Konfransında AİB-in fəaliyyəti barədə təqdimat etmişdir. Tədbirdə dövlət qurumları, donor təşkilatları, qeyrihökumət təşkilatları və özəl sektorun 60-dan çox nümayəndəsi iştirak etmişdir.



## AİB Bərpa olunan Enerji Layihəsini Təqdim Etmişdir

AİB-ın Mərkəzi və Qərbi Asiya Regional Departamentinin (MQRD) Energetika üzrə Mütəxəssisi Tianhua Luo noyabrın 23-də, AİB-ın Azərbaycanda bərpa olunan enerji layihəsini Avropa Birliyi tərəfindən ölkənin energetika sektorunun inkişafını dəstəkləmək məqsədilə maliyyələşdirdiyi layihəsi çərçivəsində Sənaye və Energetika Nazirliyi tərəfindən təşkil olunmuş seminarda təqdim etmişdir. ■



# Yeni Nəşr

## Asiya və Sakit Okean Regionunda Daha Təmiz Enerjinin Gələcəyinə Doğru



Bu sənəd Asiya və Sakit Okean regionu üçün enerji məsələləri barədə qısa məlumat, həmçinin daha təmiz və təhlükəsiz enerji mənbələrinə, o cümlədən enerjidən daha səmərəli istifadəyə olan ehtiyaca uyğunlaşmaq üçün mümkün variantların təhlilini verir. Kitabda, həmçinin, iqlim dəyişiklikliyinə reaksiya daxil olmaqla regionumuzda enerjinin gələcəyi sahəsində yardım etmək üçün AİB-in təşəbbüsləri sadalanmışdır.

*Bu sənədin nüsxəsini əldə etmək üçün Azərbaycandakı Daimi Nümayəndəliklə əlaqə saxlayın və ya göstərilən saytdan yükləyin: http://www.adb.org/Documents/Books/cleaner-Energy-Future/cleaner-Energy-Future.pdf*

# Mərkəzi Asiyada Regional Əməkdaşlığı Sürətləndirmək üçün Fəaliyyət Planı

Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (MARİƏ) çərçivəsində oktyabrın 20-də Çin Xalq Respublikasının (ÇXR) Urumçi şəhərində keçirilmiş Beşinci Nazirlər Görüşündə regional əməkdaşlığı sürətləndirmək üçün hərtərəfli fəaliyyət planı qəbul olunmuşdur. Konfransda Əfqanıstan, Azərbaycan, ÇXR, Qazaxstan, Qırğızıstan, Monqolustan, Tacikistan və Özbəkistandan nazirlər və yüksək səviyyəli dövlət rəsmiləri, o cümlədən MARİƏ-nin tərəfdaşı olan altı çoxtərəfli təşkilatlarının (ÇT) və ikitərəfli və digər regional təşkilatların nümayəndələri bir araya gəlmişlər.

Azərbaycan nümayəndə heyətinə İqtisadi İnkişaf Nazirliyinin Aparatının Rəhbəri Samir Vəliyev başçılıq etmişdir və heyətə İqtisadi İnkişaf Nazirliyi, Nəqliyyat Nazirliyi, Sənaye və Energetika Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri daxil olmuşlar.

Nazirlər MARİƏ ölkələri arasında regional əməkdaşlığın və inteqrasiyanın artan əhəmiyyətini təsdiq edərək, digər regional təşkilatlarla birgə iqtisadi inteqrasiyanı sürətləndirməkdə proqramın əhəmiyyətli rolu olduğunu qeyd etmişlər. Konfrans çoxtərəfli təşkilatlarının MARİƏ Proqramına maliyyə və texniki yardımını ikidəfədən çox artırılmasını və 2006-cı ildən başlıyaraq 3 il üçün 2,3 milyard dolların ayrılmasını alqışladılar. ÇT-rına AİB, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, İslam İnkişaf Bankı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və Dünya Bankı daxildir.

Konfransda nəqliyyat, ticarət və energetika kimi mövcud prioritet sahələrə insan inkişafı, ətraf-mühit, kənd təsərrüfatı və turizm kimi yeni sektorlarda xüsusi təşəbbüslər əlavə etməklə MARİƏ-ni genişləndirmək və dərinləşdirmək barədə razılığa gəlinmişdir. Proqram regionu nəinki nəqliyyat və digər infrastruktur şəbəkələri vasitəsilə, həmçinin iqtisadi tədbirlər şəbəkəsi vasitəsilə inteqrasiya etmək məqsədilə bacarıqların artırılması, bilik mübadiləsi və iqtisadi dəhlizlərin yaradılması kimi regional əməkdaşlıq üçün əlavə siyasət təşəbbüsləri və vasitələrindən istifadə edəcəkdir. Konfrans çoxtrəfli tərəfdaşları regional əməkdaşlıqlarını fəaliyyət planı ilə əlaqələndirməyə, təkrara yol verməməyə və resurslardan səmərəli istifadəni maksimum səviyyəyə qaldırmağa çağırmışdır.

MARİƏ Proqramı AİB dəstəyi ilə 1997-ci ildə yaradılmışdır. MARİƏ-yə daxil olan ölkələrin əksəriyyətinin dənizə çıxışının olmamasını, kiçik ölçüsünu və əsas dünya bazarlarından uzaq olduğunu nəzərə alsaq, regional əməkdaşlıq onların iqtisadi inkişafına müsbət təsir göstərə bilər. ■






**BEŞİNCİ NAZİRLƏR KONFRANSI** Prezident Haruhiko Kuroda MARİƏ Beşinci Nazirlər Konfransının iştirakçılarını salamlayır


## Azərbaycandan XƏBƏRLƏR

Bu Asiya İnkişaf Bankının (AİB) Azərbaycandakı Daimi Nümayəndəliyinin (AZDN) rüblük xəbərlər bülletenidir hansı ki, AİB-nın və onun əməkdaşlıq etdiyi qruplar arasında əlaqəni daha da gücləndirilməsi məqsədinə ünvanlanıb. Azərbaycandan Xəbərlər AİB-na dair məlumatın yayılması və Azərbaycanda inkişaf məsələlərin müzakirəsinə ünvanlanıb. Halbuki, nəşrdə qeyd olunan fikirlər AİB-nın rəsmi mövqeyini əks etdirməyə bilər. Biz oxucuların iradlarını və təkliflərini alqışlayırıq.



Azərbaycanda Daimi Nümayəndəlik
Nizami küç. 96,
Ləndmark Binası,
4-cü mərtəbə
Bakı AZ 1010, Azərbaycan
Tel:+ 994 12 496 5800
Faks:+ 994 12 465 9990
adbazrm@adb.org
www.adb.org/azrm



**www.adb.org**

- **Biznes imkanları:** www.adb.org/business/opportunies
- **Media sorğuları və son xəbərlər** www.adb.org/media
- **Nəşrlər:** www.adb.org/publications və yaxud faks: +63 2 636 2648